MahadSunnah

هيثم سرحان

# تهون المصائب
# إذا استقبلناها بــحسن الظن بالله

# BƏLALARLA QARŞILAŞDIQDA ALLAH HAQQINDA YAXŞI ZƏNNLƏ QƏBUL ETMƏK


## Şeyx Heysəm Sərhan

"Sünnə" tədris mərkəzinin rəhbəri


Azərbaycan dili

اللغة الأذرية




Tərcümə edən: İlqar Eyvazoğlu


ALSARHAAN.COM

MAHADSUNNAH.COM

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

# *Bəlalarla qarşılaşdıqda*

## *Allah ﷻ haqqında yaxşı zənnlə qəbul etmək*

Allah ﷻ haqqında yaxşı zənn böyük bir qəlbi ibadətdir.

- ✓ O da Allaha ﷻ yaraşan əməllər, ad və sifətlərin olmasına etiqad etməkdir.
- ✓ Eləcə də bunun gərəkdirdiyi böyük məsələlərə etiqad etmək:
  - ✓ Allahın ﷻ rəhmətə layiq olan bəndələrinə rəhm etdiyinə.
  - ✓ Tövbə edib Ona dönənləri bağışlayacağına.
  - ✓ Onların itaət və ibadətlərini qəbul etdiyinə.
  - ✓ Allahın ﷻ qəza və qədərində böyük hikmətlərin olduğuna etiqad etmək kimi.

Kim zənn edərsə ki, yaxşı niyyət əməli gərəkdirmir o səhv edir.

Əgər bir insanın ona faydalı bəhər verəcəyinə ümid etdiyi bir torpağı olsa, lakin o, ona laqeyd yanaşsa, nə əkib, nə də becərsə, şumlayan, suvaran və əkib-becərən kimi onun da

torpağının faydalı bəhər verəcəyinə yaxşı zənn etsə, insanlar onu ən axmaq kəs hesab edərlər.[1]

Necə ki, Allah ﷻ haqqında yaxşı zənndə olmaq, vacibləri tərk etmək və ya günah işlətməklə olmur.

Kim belə düşünürsə, özünü aldadır. Və o özünü, Allahın ﷻ hiyləgərlərə qarşı hiyləsindən əmin hiss edir.

İbn əl-Qeyyim (Allah ona rəhm etsin) deyir ki:

"Yaxşı zənn ilə hiylə arasındakı fərq aydındır:

- Əgər yaxşı zənn əmələ sövq edərsə, ona təşviq edərsə, ona kömək edərsə və ona apararsa, bu doğrudur.
- Əgər əməllər etməməyə və günahla məşğul olmağa çağırarsa, bu hiylədir."[2]

Müsəlman üçün əsas prinsip hər zaman Rəbbi haqqında yaxşı zəndə olmaqdır.

Müsəlmanda yaxşı zənn iki yerdə olmalıdır:

1. İtaətləri yerinə yetirdikdə.

Qüdsi hədisdə gəlib ki, Allah ﷻ buyurur:

---

[1] Əl-Cəvəb əl-Kəfi 1/38-39
[2] Əl-Cəvəb əl-Kəfi 1/38

"Mən, qulumun, haqqımdakı zənni yanındayam. Məni zikr etdiyi vaxt, onunlayam. O, Məni, öz-özlüyündə zikr etsə, Mən də, onu Öz-Özlüyümdə zikr edərəm. O, Məni, camaat yanında zikr edərsə, Mən də, onu, onlardan daha xeyirli topluluq (mələklər) yanında zikr edərəm. O, Mənə bir qarış yaxınlaşsa, Mən, ona bir arşın yaxınlaşaram. O, Mənə bir arşın yaxınlaşsa, Mən, ona bir qucaq yaxınlaşaram. O, Mənə doğru yeriyərək gəlsə, Mən, ona doğru yüyürərək gələrəm."[3]

Hər kim bu mövzuda düzgün düşünərsə, Allah ﷻ haqqında yaxşı zəndə olmağın özünün də yaxşı əməl olduğunu bilər.[4]

2. Müsəlmanın Rəbbi haqqında yaxşı zəndə olmağın tələb olunduğu ikinci yerə gəlincə, bu, müsibətlərin baş verməsi və ölümün baş verməsi anıdır.

Cabirdən (Allah ondan razı olsun) gələn hədisdə buyurur Peyğəmbərin ﷺ ölümündən üç gün öncə belə dediyini eşitdim:

"Sizlərdən heç biriniz Allah haqqında yaxşı zənndə olmadıqca ölməsin."[5]

---

[3] Buxari və Muslim
[4] Əl-Cəvəb əl-Kəfi 1/27
[5] Muslim (2877)